**Ülkər Ziya**

# ƏLVİDA, STİV!

*Sağ qalmaq həmişə yaşamaq demək deyil…*

QANUN NƏŞRİYYATI

**Ülkər Ziya. Əlvida, Stiv!**

Bakı, Qanun Nəşriyyatı, 2026, 232 səh.

Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 26.08.2026

Redaktor: Aygül Yelmarlı
Korrektor: Aytən Səadəti
Mətn dizaynı: Vüqar Nağıyev
Qapaq dizaynı: Rövşən Abbas

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-15-104–6

© Qanun Nəşriyyatı, 2026
© Ülkər Ziya, 2026

Bu əsərdə yer alan bütün personajlar, hadisələr
və məkanlar bədii təxəyyülün məhsuludur.
Hər hansı real şəxs, məkan, təşkilat və ya
hadisə ilə bənzərlik təsadüfi xarakter daşıyır.

# ANNOTASİYA

Stiv Meyersin həyatı kənardan mükəmməl görünür. Uğurlu karyera, şöhrət, sevgi dolu ailə… Amma bir gecədə hər şey alt-üst olur.

Valideynlərinin müəmmalı ölümü ilə başlayan hadisələr Stivi keçmişin qaranlıq sirlərinə aparır. Hər yeni iz onu həqiqətə yaxınlaşdırmaq əvəzinə daha dərin bir labirintə sürükləyir. Artıq əsas sual qatilin kim olduğu deyil. Əsas sual budur: "İnsan öz ağlına nə qədər güvənə bilər?"

"Əlvida, Stiv!" kimlik, travma, yaddaş və qaranlıq həqiqətlər üzərində qurulmuş psixoloji trillerdir.

# İÇİNDƏKİLƏR

**TƏRK EDİLMİŞ HƏYAT** ........ 7
**OTAQ** ........ 9
**VERİLİŞ** ........ 12
**İDEAL** ........ 13
**MEYERSLƏR** ........ 17
**UĞUR** ........ 19
**ADAM PİRS** ........ 23
**SEVGİ** ........ 26
**HADİSƏ YERİ** ........ 33
**GÜNAH** ........ 35
**İLK QURBAN** ........ 37
**TELEFON** ........ 41
**PİZZA** ........ 43
**MÜŞTƏRİ** ........ 46
**MAŞIN** ........ 49
**ROBERT MEYERS** ........ 51
**NÖVBƏTİ** ........ 55
**NAMƏLUM TANIŞ** ........ 57
**NİYƏ?** ........ 60
**NÖMRƏ** ........ 63
**SORĞU** ........ 65
**YENİ TƏYİNAT** ........ 71
**ŞÜBHƏ** ........ 75
**MET UİLLİS** ........ 77
**SÜBUT** ........ 79
**REALLAŞMAYAN ARZU** ........ 80
**ZƏNG** ........ 83
**HƏYAT DAVAM EDİR** ........ 87
**DİAQNOZ** ........ 90
**MƏZAR** ........ 94
**YUXU** ........ 96
**GÜZGÜ** ........ 99
**KONFABULYASİYA** ........ 101

İÇKİ ........ 103
KABUS ........ 106
MÖHTƏŞƏM ........ 110
ŞAHİD TƏBİƏT ........ 113
NÖVBƏTİ SƏHƏR ........ 116
GÖRÜŞDƏN ƏVVƏL ........ 118
XƏBƏR ........ 122
QARAJ ........ 125
SORĞU ........ 127
KÖHNƏ TANIŞ ........ 130
ETİRAF ........ 134
UZAQLAR ........ 137
QONAQ ........ 140
İŞIQ ........ 143
AYAQQABI ........ 146
AZADLIQ ........ 150
MƏLUMAT ........ 152
EV ........ 154
SEYF ........ 157
SİRR ........ 160
YENİDƏN EFİRDƏ ........ 162
MOTEL ........ 165
QARANLIQ ........ 167
CÜMƏ ........ 169
BİR SAAT ........ 172
MAYKL LOUSON ........ 174
GECİKMİŞ ZƏNG ........ 178
ZİRZƏMİ ........ 182
CANLI YAYIM ........ 186
EKRANIN DİGƏR ÜZÜ ........ 189
HƏQİQƏT ........ 191
DİRİ ÖLÜ ........ 194
QİSAS ........ 197
XİLAS ........ 213
AXTARIŞ ........ 216
MİSTFORD ........ 220
YANILMA ........ 222
ANLAYIŞ ........ 224
PSİXİATR ........ 226
MÜƏLLİFİN QEYDİ ........ 228

# TƏRK EDİLMİŞ HƏYAT

Mistforddakı bu bina illərdir nəfəsini içinə çəkib susurdu. Tənha küçənin sonunda, paslanmış darvaza hələ də yerində idi. Amma narahatlıq doğuran pas yox, onda gizlənən reallığın illərdir toxunulmaz qalması idi. Bu darvazanın açıldığı insanlara həyat çoxdan qapanmışdı. Elə bil burada təkcə dəmir yox, insanların ömrü də pas atmışdı.

Binanın içinə addım atan kimi havanın temperaturu birdən-birə düşürdü. Radiator işləyirdi, amma bina heç cür isinmirdi. Divarların rəngi ağ idi – amma bu ağ, bütün gözəl şeylərdən uzaq, yorğun və xəstəhal bir çalar idi. Bəzi yerlərdə vaxtilə sızan sudan ləkələr də qalmışdı; ilk baxışdan insan üzünü xatırladan, sonra xəritəyə çevrilən, daha sonra isə heç nəyə bənzəməyən, izaholunmaz narahatlıq doğuran ləkələr.

Palatalardakı çarpayılar tərpəndikcə köhnə dəmir uzun və yorğun cırıltılı səs çıxarırdı. Hərdən hansısa qapının arxasından qəfil isterik bir gülüş eşidilir, başqa bir otaqdan divara çırpılan əşya səsi gəlirdi. Bəzən isə qışqırıqlar yüksəlirdi – qəfil başlayır, amma qısa çəkirdi. Bəzi qapıların arxasında, hətta cırmaq izlərinə də rast gəlinirdi.

Köhnə qeyd dəftərində bəzi xəstələrin adlarının qarşısındakı hissə boş buraxılmışdı. “Yaxını yoxdur” cümləsi xüsusilə tez-tez təkrarlanırdı.

Xəstələrin özünü qəribə aparmasına hər kəs öyrəşmişdi. Bir qadın yeməkxanada həmişə ikinəfərlik masa seçirdi. Qarşısındakı boş stulla danışır, bəzən də kiminləsə mübahisə edirmiş kimi səsini qaldırırdı. Bir kişi isə hər keçən işçiyə eyni sualı verirdi: "Biz hansı ildəyik?". Ən qəribə olanlar isə heç nə etməyənlər idi – saatlarla tavana baxanlar, günlərlə danışmayanlar. Onların ağlından nələr keçdiyini heç kim bilmirdi.

Gecələr hər şey daha vahiməli görünürdü. Bina qaranlıqda susmur, əksinə, danışmağa başlayırdı. Borulardan axan su səsi pıçıltını xatırladırdı. Külək pəncərə barmaqlıqlarına toxunanda çıxan səs insanı ürküdürdü. Burada insan öz kölgəsindən belə çəkinirdi. Bəziləri kölgələrin onları izlədiyini deyirdi və bu sözlər zarafat deyildi.

Vaxt da burada mənasını itirmiş, gecəylə gündüz bir-birinə qarışmışdı. Nəzarətçilər dayanmadan saata baxırdı, xəstələrinsə baxmağa saatı yox idi. Zaman da bu binada xəstələnmişdi: axıb getmək yerinə donub qalmış, yavaş-yavaş çürüyürdü.

Buraya girən hər kəs bir anda iki sualı düşünürdü:

*"Buradakı insanlar niyə belədir?"*

və daha qorxulusu…

*"Mən burada nə qədər normal qala biləcəyəm?"*

# OTAQ

Bu otaq digərlərindən fərqlənirdi. Çöldəki xaosun əksinə, bura qəribə şəkildə sakit və səliqəli idi. Amma bu səliqə rahatlıq gətirmirdi. Əksinə, insanı sıxan bir düzən vardı. Masanın üstünə qara cildli bir dəftər və qara qələm qoyulmuşdu. Dəftərin içindəkiləri heç kim oxumasa da, çoxlarının taleyini məhz bu oxunmayan cümlələr həll edirdi.

Pəncərənin qabağındakı qalın, rəngi solmuş jalüz günəş şüasının qarşısını alırdı. Günəş istəsə belə, bu otağın tozlu havasına güc gələ bilməzdi. İşığı yalnız tavanın ortasındakı yorğun lampa verirdi. Hər titrəyişində son nəfəsini verirmiş kimi sızıldayırdı.

Divarda bir neçə diplom asılmışdı. Hamısı eyni çərçivədə, eyni rəngdə və eyni ab-havada idi. Baxan adamda "bunu inandırmaq üçün yox, susdurmaq üçün asıblar" fikri yaranırdı.

Psixiatr masa arxasında oturmuşdu. Eynəyini burnunun ucuna endirib qarşısındakı şəxsə baxırdı. Gözlərində çoxdan öyrəşdiyi bir yorğunluq vardı. Sanki bu səhnə onun üçün təkrar oynadılan bir kadr idi. Masanın küncündəki kiçik saat tıqqıldayır və bu səs otaqdakı insanların ürək döyüntüsünə hökm edirdi.

Kresloda oturan şəxs isə sözün həqiqi mənasında bu otaqda əyləşməmişdi. Bədəni burada olsa da, baxışları uzaqda – bəlkə də, hər şeyin ideal olduğu vaxtlarda idi. Elə bil kimsə içindən bütün həyatı çəkib aparmışdı. O, qulaq asırdı, amma anlamırdı. Ona eyni cümlənin niyə dəfələrlə deyildiyi haqqında heç bir fikri yox idi.

Psixiatr sakit səslə həmin şablon cümləni bir daha dedi:

– Sən Stivsən.

Qarşısındakı şəxs başını qaldırdı. Səsi sakit idi: eyni cavabı fərqli yerlərdə fərqli insanlara verdiyi nəzərə alınarsa, həddindən artıq sakit.

– Mən Stiv deyiləm…

Psixiatr heç nə demədi. Çünki məhz bu nöqtədən sonra sözün gücü yox olurdu. Sözlər qarşısındakının beyninə çatmırdı. Artıq heç vaxt da çatmayacaqdı.

Qapı açıldı. İki nəfər içəri girdi. Hərəkətləri dəqiq idi. Artıq neçə dəfə eyni vəziyyəti görmüş adamın dəqiqliyi idi bu. Oğlan onlara baxdı. Geri çəkilmədi. Sadəcə baxdı və ayağa qalxdı.

– Mən Stiv deyiləm, – dedi eyni tonla.

Onlardan biri yaxınlaşdı. Digəri bir addım arxada dayandı. Qollarından tutdular. Adamlar həmişəki kimi müqavimət gözləyirdilər. Olmadı. Əksinə, bədəni onların hərəkətinə uyğunlaşdı. O, yenə eyni cümləni təkrarladı.

– Mən Stiv deyiləm. Mən o deyiləm…

Dəhlizə çıxaranda artıq danışmırdı. Sadəcə addımlayırdı – onu apardıqları yerə doğru.